# Bayramınız mübarək, əziz qadınlar!

## Bayramım elə müəllimliyimdir...

**Şəhla Əliyeva,**
*Bakı şəhəri, İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyinin müəllimi, əməkdar müəllim, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi*

Müəllimlik - adi bir peşədən daha üstündür. O, taledir! Və nə vaxt ki, özünü əsl müəllim kimi hisss edirsən, artıq bu mənaya necə vardığının önəmi qalmır. Çünki həmin andan etibarən müəllimlik sənınlə bütünləşərək adi bir peşə olmaqdan çıxıb, həyat tərzinə çevrilir.

Mən özüm də müəllim ailəsində tərbiyə almışam. Və mən bununla daima fəxr etmişəm. 7-ci sinifdə təhsil aldığım zaman isə A.Makarenkonun "Pedaqoji poema" əsərini oxuduqdan sonra müəllim olmaq qərarına gələrək, bu peşəni məhz qəlbimin hökmü ilə seçmişəm və günü bu gün də mənə hər şeyi yenidən başlamaq şansı verilərsə, şübhəsiz yenə eyni həyatı, 27 il özümü həsr etdiyim müəllimliyi seçərəm.

Müəllimlik sənəti yüksək əmək, böyük iş təcrübəsi, uşaqlara sevgi və səbr tələb edir. İşlədiyim illər ərzində o nəticəyə gəlmişəm ki, müəllim ustalığı heç də təsadüfi uğur deyil, əksinə, o tam sistematik əməyin, gecə-gündüz demədən mükəmməl olmaq uğrunda yeni fikir axtarışlarının və tapılan yeniliklərin yolunda çəkilən əzabların məcmusudur.

Və bir gün gəlir, üzünü xatırlamaqda belə çətinlik çəkdiyiniz, boyu boyunuza çatmış birinin, aradan uzun illər keçməsinə baxmayaraq, "İlk müəllimim" deyərək adınızı və soyadınızı böyük minnətdarlıq və sevgiylə xatırlaması sizə elə xoş gəlir ki, məhz o zaman "bütün bu illər boyu çəkdiyim hər çətinliyə dəyərmiş" deyirsiz.

Bu gün mənim əməyimə qiymət verən hər kəsə "çox sağ olun!" deyirəm. Xüsusən də 2015-ci ildə məni "Əməkdar müəllim" fəxri adına layiq görərək əməyimə yüksək qiymət verən möhtərəm Prezidentimiz İlham Əliyevə çox minnətdaram.

Mənim rütbəm - əməyimin nəticəsi, pedaqoji iş təcrübəmdir. Və bu günə kimi hər gün ilk günkü həvəslə həyətinə ayaq basdığım "Tərəqqi" liseyi isə mənim evimdir. Bütün həyatım orada keçib.

Fürsətdən istifadə edərək liseyimizin direktoru Məhbubə Məmmədova başda olmaqla bütün qadın müəllim kollektivimizi, eləcə də ölkəmizin bütün qadın müəllimlərini 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edir, hər birinə möhkəm cansağlığı, tükənməz enerji, sənət axtarışı arzulayıram.

## Ən yaxşı müəllim

Müəllimin fəaliyyətini yalnız dərs dediyi şagirdlər deyil, bütövlükdə məktəb kollektivi, valideynlər, nəhayət, cəmiyyət izləyir. Ona görə də çoxsahəli fəaliyyətində müəllim öz vəzifələrinin öhdəsindən gəlməyə, işini düzgün qurmağa müvəffəq olmalı, əsas vəzifəsi olan şagirdlərə təhsil verməyi keyfiyyətlə həyata keçirməlidir. Bunun üçün müəllim real şəraitə münasib rəhbərlik üslubu seçməklə pedaqoji situasiyaları nizamlamağı, şagirdlər üçün əlverişli təhsil mühiti yaratmağı, bu prosesi düzgün idarə etməyi bacarmalıdır. Bunu yalnız peşə fəaliyyəti üzrə bilik və bacarıqlar arasında real əlaqə yaratmaq yolu ilə həll etmək mümkündür.

Şabran rayonunda öz işini yaxşı bilən, deyilənləri öz fəaliyyətində gerçəkləşdirən müəllimlər çoxdur. Onlardan biri də Şabran şəhəri T.Abbasov adına 1 nömrəli tam orta məktəbin riyaziyyat-informatika müəllimi Fazilova Şəfəq Nadir qızıdır.

Ş.Fazilova elmi-nəzəri, pedaqoji və metodik cəhətdən geniş hazırlıqlıdır. O, ümumi təhsil sahəsində aktual hesab edilən, fənnin tədrisi metodikasının təkmilləşdirilməsi, yeni təlim strategiyalarının tətbiqi məsələlərinə aid məqalələrlə Azərbaycan Respublikasının Təhsil Nazirliyi sistemində, Rusiya, Almaniya və Avstriyada fəaliyyət göstərən, Ali Attestasiya Komissiyası tərəfindən tanınan dövri elmi nəşrlərdə tez-tez çıxışlar edir. O, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Riyaziyyat və informatika", "Təlim prosesində fənlərarası inteqrasiya" və "İnteraktiv təlimdə motivasiyalar" adlı metodik vəsaitlərin müəllifidir.

Ş.Fazilova 2014-2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuş, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 5000 (beş min) manat məbləğində birdəfəlik pul mükafatı ilə mükafatlandırılmışdır.

İşlədiyi müddət ərzində Ş.Fazilovanın onlarla şagirdi Azərbaycan Respublikası daxilində və respublikadan kənarda müxtəlif ali məktəblərə daxil olmuş, hər il ən azı 1-2 şagirdi riyaziyyat müəllimliyi peşəsini seçmişdir.

Ş.Fazilova Azərbaycan Respublikası Təhsil Şurasının üzvüdür. O, Azərbaycan Respublikası TPİ-də, Şabran şəhərində və işlədiyi məktəbdə vaxtaşırı "dəyirmi masa", seminar, konfranslarda çıxışlar edərək müasir təhsilin inkişafı ilə bağlı səmərəli təkliflər verir.

Ş.Fazilova gənc müəllimlərə daim pedaqoji-metodik köməklik göstərir. Tədris prosesində təlim üsullarından səmərəli istifadə edir. O, informatika fənni üzrə Şabran Rayon Təhsil Şöbəsində metodbirləşmə rəhbəridir.

Ş.Fazilovanın iki şagirdi - Rüstəm Cavadov və Aytəkin İsmayılova "Kompüter texnologiyaları və informatika" üzrə Şimal rayonlararası keçirilən müsabiqədə qalib gələrək sertifikat və stolüstü kompüter dəsti ilə mükafatlandırılmışdır.

Ş.Fazilova şagirdlərii ilə birlikdə 2010-cu ildə Sumqayıt şəhərində təşkil olunmuş "Təhsil, elm, informasiya texnologiyaları" festifalında iştirak edərək iki nominasiya (bloq və təqdimatların yaradılması) üzrə qalib gəlmiş və xüsusi mükafatın sahibi olmuşdur. Təhsil Nazirliyinin təşkil etdiyi "Elektron təhsil" müsabiqəsinin müxtəlif illərdə 2011-ci ildə tək və 2013-cü ildə isə dərs dediyi şagird, müəllim həmkarları ilə birgə nominantı olub.

Öz işinə həmişə məsuliyyətlə yanaşan Ş.Fazilova pedaqoji ictimaiyyət arasında, şagird və valideynlər yanında yüksək nüfuza malikdir.

Onun pedaqoji kredosu belədir: Qlobal tərzdə düşünüb, yerli tərzdə fikirləşərək, beynəlxalq tərzdə işləmək.

**Rəhimə TEYMUROVA,**
*Şabran şəhər M.Nəzirov adına 4 nömrəli tam orta məktəbin sinif müəllimi*

## Gözəllik və rahatlıq simvolu

**Almaz İsmayılova,**
*Bakı şəhəri, Əsəd Ələsgərov adına 244 nömrəli tam orta məktəbin müəllimi, əməkdar müəllim, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi*

Ölkəmizdə elə bir sahə tapılmaz ki, orada qadınların gücü, qüdrəti hiss olunmasin. Milli dövlətçiliyimizin möhkəmləndirilməsində qadınlarımızın rolu əvəzedilməzdir. Siyasi-ictimai həyatda kişilərlə bərabər fəallıq göstərən Azərbaycan xanımlarıı ilk növbədə ocağının qoruyucusudur. Harada qadın varsa, orada gözəllik, rahatlıq var. Əbəs yerə demirlər ki, dünyanı gözəllik xilas edəcək. Bu gözəllik və zərifliyin arxasında duran böyük qüvvə də məhz zərif cinsə aid olan qadınlardır. Qadına məhəbbət, sevgi, sayğı müqəddəs "Qurani-Kərim"də də öz əksini tapmış, onlara ehtiram göstərilmişdir.

İndi qız uşaqlarımızın kütləvi şəkildə təhsil alması savadlı cəmiyyətdən, parlaq gələcəkdən xəbər verir.Və nə xoş hal ki, məhz bu sahədə görülən işlərdə mənim də bir müəllim kimi əməyim var. Mən müəllimin insan həyatına təsirini öz şəxsi nümunəmdə görmüşəm. Sinif müəllimim əməkdar müəllim Həmidə Zeynalovanı özümə ideal seçərək məhz bu ixtisasa yiyələnmişəm. Uzun və şərəfli yolun yolçusuyam. Pillə-pillə müəllim, metodbirləşmə sədri, metodist, dayaq məntəqə sədri, dərs vəsaiti və metodik vəsait müəllifi olmuşam. Bir çox müsabiqələrin qalibiyəm. Prezidentin sərəncamı ilə keçirilən "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, qabaqcıl təhsil işçisi və nəhayət, "Əməkdar müəllim" fəxri adının daşıyıcısıyam. Bu gün fəxr edə biləcək şagirdlərim, yetirmələrim var. Deyərdim ki, həyatda öz yerini tapanlardanam və xoşbəxtəm. Cəmiyyətimizə, xalqımıza faydalı olmağım məni işimdə yeni-yeni nailiyyətlər əldə etməyə ruhlandırır.

Fürsətdən istifadə edərək Azərbaycanımızın inkişafında səylə çalışan bütün xanımları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edir, onlara möhkəm, sağlam uzun ömür, əmin-amanliq, xeyir-bərəkət arzulayıram.

## O, öz yetirmələri ilə həmişə fəxr edir

Nüşabə Ələsgərova 1978-ci ildə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun filologiya fakültəsini bitirib, 2002-ci ildə isə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda ikinci - Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası alıb. O, əmək fəaliyyətinə 1978-ci ildə Sumqayıt şəhəri 23 nömrəli tam orta məktəbdə başlayıb və 1986-cı ildən bu günə kimi Bakı Avropa Liseyinin rus bölməsində Azərbaycan dili müəllimi işləyir. Hazırda pedaqoji fəaliyyəti elmi-metodik yaradıcılıqla ustalıqla əlaqələndirən, öz işinə məsuliyyətlə yanaşan yaradıcı müəllimlərdəndir.

Nüşabə Ələsgərova dərs dediyi şagirdlərə tədris etdiyi fənləri dərindən öyrətmək üçün tədris prosesində ən müasir təlim metodlarından istifadə edir. Dərs zamanı interaktiv təlim metodlarını tətbiq etməklə tədris prosesini maraqlı qurur.

O, şagirdlərini müasir həyata düzgün hazırlanması işinin öhdəsindən bacarıqla gəlir. Onların təlim-tərbiyəsi ilə əlaqədar olan problemli məsələlərin həllində valideynlərin əməyindən düzgün istifadə edə bilir. Həmçinin şagirdlərin hər birinə fərdi yanaşmağa xüsusi diqqət yetirir və çalışır ki, bütün şagirdlər dərs prosesində fəal iştirak etsin.

Söhbət zamanı Nüşabə Ələsgərova bildirdi ki, dərs prosesində şagirdlərin biliyinin qiymətləndirilməsinə xüsusi tələbkarlıqla yanaşıram. Çalışıram ki, bu baxımdan şagirdin hüququ və ədalət prinsipi əsas tutulsun, pozulmasın.

Müəllimliyi həyatının mənası hesab edən Nüşabə Ələsgərova şagirdlərlə işləməkdən qətiyyən yorulmur və ən əsası çətin tərbiyə olan uşaqlarla daha tez dil tapmağı bacarır. Deyir ki, hər bir müəllim şagirdin öyrənməsi üçün bütün imkanlarından istifadə etməli və bütün varlığı ilə həyatını dərs dediyi şagirdlərin təlim-tərbiyəsinə həsr etməlidir.

Elə buna görə də Nüşabə Ələsgərovanı vaxtı ilə dərs dediyi şagirdləri heç vaxt unutmur və öz müəllimlərini böyük məhəbbətlə, minnətdarlıq hissi ilə qarşılayırlar.

Dəfələrlə islədiyi liseyin rəhbərliyi tərəfindən fəxri fərman alan təcrübəli pedaqoq Nüşabə Ələsgərova öz yetirmələri ilə həmişə fəxr edir və şərəfli müəllimlik işini uğurla davam etdirir.

Söhbət zamanı liseyin təlim-tərbiyə işləri üzrə direktor müavini Aynur Rüstəmova bildirdi ki, Nüşabə müəllim yaxşı pedaqoq olmaqla bərabər, həm də gözəl ailə sahibidir. İki övladı, üç nəvəsi var.

Biz də qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Nüşabə Ələsgərovanı ürəkdən təbrik edir və pedaqoji fəaliyyətində ona yeni uğurlar arzulayırıq.

**Şakir CƏFƏROV,**
*"Azərbaycan müəllimi"*

## "Cahan süfrəsi"nə verilən çiçəklər

**Rəna Aslanova,**
*Daşkəsən rayonu İ.Nəsimi adına şəhər 1 nömrəli tam orta məktəbin müəllimi, əməkdar müəllim*

Ulu öndərimiz Heydər Əliyev müəllimlik sənətinə çox yüksək qiymət verərək öz həyatını müəllimliyə həsr edən insanları fədakar, vətəninə, millətinə sədaqətli, eyni zamanda qəhrəmanlıq göstərən insanlar adlandırmışdır. Çox xoşbəxtəm ki, mən də müəlliməm.

Görkəmli söz ustası Hüseyn Cavidin söylədiyi bu kəlam hər zaman mənim ömür yolumu işıqlandırır: "Bəxtiyarsan əgər çəkdiyin əmək, cahan süfrəsinə versə bir çiçək". Biz müəllimlər öz yetirmələrimizlə cahan süfrəsinə min-min çiçəklər veririk.

1978-ci ildən təyinatla Daşkəsən rayonuna gəlib müəllim kimi fəaliyyət göstərirəm. Bu illər ərzində çox uğurlarım olub. Ən böyük mükafatım isə şagirdlərimin mənə minnətdarlıq hissi ilə baxan baxışlarını saymışam.

2005-ci ildə ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görüldüyüm üçün özümü xoşbəxt hesab edirəm. Bu fəxri ad məni daha məsuliyyətli olmağa, şərəfli peşəmi daha ürəklə sevməyə, Azərbaycan dili və ədəbiyyatını həvəslə tədris etməyə sövq edib.

Qarşıdan 8 Mart - Beynəlxalq Qadınlar Günü gəlir. Bilirəm ki, artıq 634 bal toplayaraq 2013-2014-cü dərs ilində tələbə adını qazanan sevimli şagirdim Ülfət Paşayev hər zaman olduğu kimi, məni ilk təbrik edənlərdən olacaq. Sonra daha neçə-neçə şagirdimdən, indi hərəsi bir kollektivdə çalışan məzunlarımızdan təbriklər gələcək.

Kollektivimizdə çalışanların əksəriyyəti qadınlardır. Başda direkorumuz olmaqla bütün müəllimləri, onların timsalında Azərbaycan qadınlarını ürəkdən təbrik edir, hər birinə uğurlar arzulayıram.

Şagirdlərimdən birini - bu ilin dekabrında "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuş, hazırda Gəncə şəhəri Sevinc qəsəbə 21 nömrəli məktəbin müəllimi olan qızım Gülnarı isə bayramı münasibəti ilə xüsusi təbrik etmək istəyirəm.

Qadınlarımıza, həmkarlarıma böyük bayram sevincləri arzulayıram.

## Bizim Sara müəllim

Söhbət Qəbələ rayon İ.Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbinin müəllimi Sara Əzizovadan gedir. Sara müəllim 1969-cu ildə Qəbələ rayon Nohurqışlaq kəndində dünyaya göz açıb.

Arzusu müəllim olmaq olan Sara orta məktəbi əla qiymətlərlə bitirib. Təbiət fənlərinə maraq onu Bakı Dövlət Universitetinə gətirib. 1991-ci ildə isə universiteti bitirərək təyinatla öz doğma kəndinə qayıdıb və kimya müəllimi kimi fəaliyyətə başlayıb. Elə ilk günlərdən özünə qarşı tələbkarlıq, dərslərə ciddi hazırlıq Sara müəllimə hörmət gətirdi. Az vaxtda hamı onu savadlı, bacarıqlı bir müəllim kimi tanıdı. RTŞ-nin metodkabinetinin dəfələrlə təşkil etdiyi "açıq dərs"lər onun bacarıqlı və peşəkar bir müəllim olduğunu sübut edirdi. Ötən dərs ilində Sara müəllimin təşkil etdiyi "açıq dərs" videolentə alınaraq bir çox məktəblərdə nümayiş etdirildi.

Bu gün Sara müəllimin yetirmələrinin səsi müxtəlif ali məktəblərdən, elm və təhsil ocaqlarından gəlir.

Sara müəllim həm də gözəl valideyndir. O, üç övlad anasıdır. Böyük qızı Tünzalədir. Ananın elmə marağı övladlarına da sirayət etmişdir. Tünzalə Azərbaycan Tibb Universitetinin müalicə və profilaktika fakültəsinin V kursunda təhsil alır. Kiçik qızı Vüsalə isə məktəbimizin fəxridir. O, 2013-2014 və 2014-2015-ci dərs illərində respublika fənn olimpiadalarında tarix fənnindən qalib olmuş, Təhsil Nazirliyi tərəfindən qiymətli hədiyyə və diplomlarla təltif olunmuşdur. Vüsalə orta məktəbi qızıl medalla bitirmiş, hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq fakültəsində təhsil alır. Prezident təqaüdçüsüdür.

Sara müəllimin oğlu isə məktəblidir. O, dərs əlaçısıdır.

Sara müəllim həm də XI b sinfinin sinif rəhbəridir. Sinifdə təhsil alan 24 şagirdin hər biri ona bir ana kimi yanaşır.

Sara müəllimi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, ona çətin və məsuliyyətli işində uğurlar arzulayırıq.

**Yaqub TAHİROV,**
*Qəbələ rayon İ.Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbinin direktoru*

## "Gəl, əziz bayramım, bir də görüşək"

**Dilşad Kərimova,**
*Ucar şəhər 2 nömrəli tam orta məktəbin kimya müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi*

8 Mart - Beynəlxalq Qadınlar Günü yaxınlaşır. Novruzdan sonra ən çox sevdiyim bayramlardan olan 8 martın hər gəlişi məndə qadınlara göstərilən diqqətdən yana xoş əhvali-ruhiyyə yaradır.

Bayram sevincdir, fərəhdir, xoş ovqatdır. Bunları sənə yönələn çoxsaylı bayram təbrikləri yaradır. Builki 8 mart isə mənim üçün xüsusilə əlamətdardır. Cəmi iki ay yarım öncə bir çox həmkarım kimi, mən də "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşam.

Mən müsabiqədə iştirak etmək üçün hazırlaşanda fəaliyyətimi genişləndirməyə başladım. Bir çox müsabiqələrə qatıldım, layihələrdə iştirak etdim. Sertifikatlar, diplomlar aldım.

Dərs dediyim siniflərdə kimya fənninə böyük maraq yaradıram. Təsadüfi deyil ki, fəaliyyət göstərdiyim şəhər 2 nömrəli tam orta məktəbdə işləyən kimya müəllimləri məhz öz yetirmələrimdir.

Bu günlərdə şagirdim Ramil Hüseynov "İstedadlıların laboratoriyası" layihəsi çərçivəsində 2015-ci ildə keçirilən Respublika olimpiadasında 1-ci yerə layiq görüldüyü üçün qızıl medalla təltif olundu. Mən buna çox sevinirəm və fəxr edirəm. Mən artıq uzun illərdir ki, müəllim işləyirəm. Bu illər ərzində Ramil kimi istedadlı şagirdlərimiz az olmayıb. Bu bayram günlərində onlardan gələn təbriklər məni sevindirir. Mən də hamıya sevinc arzulayıram. Qoy bütün qadınlarımızın üzü gülsün, onların çəkdikləri böyük analıq, müəllimlik zəhmətinin nəticələri bu gülüşlərdə əks-səda versin.